**UOT 338.43**

***Səmayə Oqtay qızı BABAYEVA***
***Azərbaycan Dövlət Aqrar Universiteti, dissertant***

# AQRAR SEKTORUN DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN ƏSAS AMİLLƏRİ

***Xülasə***

**Tədqiqatın məqsədi** – Azərbaycanda aqrar sektorun dövlət tənzimlənməsinin əsas amillərinin tədqiqi.

**Tədqiqatın metodologiyası** – sistemli yanaşma, müqayisəli təhlil.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – aqrar iqtisadiyyatın dövlət tənzimlənməsi ilə bağlı tədqiqatlarda elmi mənbə kimi istifadə imkanı.

**Tədqiqatın nəticələri** – aqrar sektorun səmərəli dövlət tənzimlənməsinə dair təkliflər verilmişdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – Azərbaycan Respublikasında aqrar sektorun dövlət tənzimlənməsinin müasir alətlərinin müəyyən edilməsi və elmi cəhətdən əsaslandırılması.

***Açar sözlər: aqrar sektor, dövlət tənzimlənməsi, amillər, ərzaq təhlükəsizliyi, xarici təcrübə.***

***Giriş***

Bəşər cəmiyyətinin təkamülündə aqrar istehsal xüsusi rol oynayır və rifah həyat fondunun istehsalı ilə bilavasitə bağlı olan əmək fəaliyyəti sahəsinə aiddir. Fransada iqtisadi nəzəriyyənin fiziokratlar məktəbinin banisi F. Kene özünün *"Toxum"* əsərində yazırdı: *"Əkinçiliyin təmin etdiyi bu üstünlüklərdən ən başlıcası ondan ibarətdir ki, o, ilkin zəruri predmetlərin istehsalı üçün xammal verir, hökmdarları, əkinçiləri və ruhaniləri gəlirlə təmin edir. Məhz kənd təsərrüfatının daim təkrar istehsal etdiyi var-dövlət bütün digər sərvət formalarının əsasını təşkil edir. O, bütün peşə növlərinin məşğulluğunu təmin edir, ticarəti inkişaf etdirir, əhalinin rifahını yüksəldir, sənayeni hərəkətə gətirir və millətin çiçəklənməsinə yardım edir.*" [2].

Azərbaycanda transformasiyalar şəraitində aqrar əməyin unikallığı, onun məhsulu bir tərəfdən təklifi, sabit tələbi və yüksək məqsədləri kifayət qədər təmin edir, digər tərəfdən kənd təsərrüfatı məhsullarının qiymətlərinin və ümumilikdə iqtisadiyyatdan gəlirlərin müdafiə edilməsinin möhkəm meylini qoruyub saxlayır, müvafiq olaraq onu motivasiyaların bu fəaliyyət növündən məhrum edir. Bununla əlaqədar olaraq aqrar sektor özünün spesifik xüsusiyyətləri səbəbindən səmərəli fəaliyyət göstərmək məqsədilə, onu effektiv inkişaf etdirmək və bazar iqtisadiyyatı şəraitində rəqabətədavamlılığı təmin etmək nöqteyi-nəzərindən dövlət tərəfindən fəal yardıma ehtiyac duyur.

**Kənd təsərrüfatında müasir dövlət tənzimlənməsinə təsir edən amillər**

İqtisadi proseslərin stimullaşdırılmasında dövlətin mühüm tənzimləyici rolu [2] aqrar istehsalın sahələrinin işləmək qabiliyyətinə təsir edən xarici eksternaliyanın bərabərləşdirilməsinə, tarazlaşdırılmasına tələbatla şərtlənir. Həmçinin bu zaman aqroiqtisadiyyat və onun tərkib hissələrinin qarşılıqlı əlaqələrinin inkişafının dövlət vəzifələrini yalnız bir bazarla həll etməyin mümkünsüzlüyü, eləcə də immanent imkanların bazar mexanizminə xas (*"bazarın görünməz əli"*) olan çatışmazlıqların nəzərə alınması da zəruridir. Dövlət tənzimlənməsinin miqyası və imkanları dövlət hakimiyyətinin malik olduğu ehtiyatlara və siyasi iradəyə uyğun olmalıdır. Bunu dövlətin səyləri və bazar münasibətlərinin inteqrasiya olunduğu ölkələrin nümunəsində aydın görmək olar. Məsələn, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) məlumatlarına görə, bir çox illər ərzində fermerlərin gəlirlərinə yardımda dövlətin payı Avstraliyada 15 faiz, ABŞ-da 30 faiz, Kanadada 45 faiz, Ümumi bazar ölkələrində 49 faiz, Avstriyada 52 faiz, İsveçdə 59 faiz, Yaponiyada 66 faiz, Finlandiyada 71 faiz, Norveçdə 77 faiz, İsveçrədə 80 faiz təşkil etmişdir. Bunlar sübut edir ki, inkişaf etmiş ölkələrdə kənd təsərrüfatı milli iqtisadiyyatın prioritet sahələrindən biridir.

Müasir şəraitdə aqrar bölmənin dövlət tənzimlənməsinə bir sıra amillər təsir edir. Onları daha ətraflı nəzərdən keçirək.

**Məqsədli funksiyaların formalaşması**

Aqrar bölmədə səmərəli iqtisadi siyasət yeritmək üçün hansı zəruri məqsədlərə çatmağı aydın təsəvvür etmək lazımdır. Dövlət tənzimlənməsinin təcrübəsi göstərir ki, bunlardan ən ağıllısı birinci dərəcəli vəzifələri ayırmaqla onların üstün tutulması əsasında məqsədli funksiyanı formalaşdırmaqdır. Xüsusilə bu, aqrar iqtisadiyyatı tənzimləmək üçün çox zəruridir.

Birincisi, məqsədli funksiyaya cari şərait böyük təzyiq göstərir. Beləliklə, Azərbaycanda iqtisadi siyasətin işlənib hazırlanması institusional və struktur dəyişikliklərin daxil olduğu dərin sistemli transformasiyalar, həmçinin iqtisadiyyatın liberallaşması şəraitində baş verir.

İkincisi, bazar iqtisadiyyatında dövlətin tənzimləyici potensialı məhduddur. Dərhal bir neçə miqyaslı məqsədlərə nail olmaq üçün onda vasitələr çatışmır. Məqsədlərin sayı dövlətin iqtisadi siyasət vasitələrinin sərəncamında olan ehtiyatlardan üstün olmamalıdır. Bu Y.Tinbergen bərabərsizliyi adlanır [4].

İqtisadi siyasətin məqsədinin məhdudluğu və prioritetlərin yerləşməsi iqtisadiyyata ziddiyyətli təsir göstərən dövlətin sərəncamındakı tənzimləyicilərin çoxluğundan asılıdır. Belə bir şəraitdə hər hansı bir problem, deyək ki, inflyasiyanı götürüb onun həllinə nail olmaq məqsədəuyğundur. Eyni zamanda aqrar bölmənin bazar əməyində antiinflyasiya tənzimlənmənin mənfi nəticələrinin mümkün qədər az hiss olunması üçün iqtisadi və siyasi amartizatorlardan istifadə etmək lazımdır.

**Zaman amili.** Dövlət tənzimlənməsinin müxtəlif metod və formalarından istifadə edilməsi zamanı gecikmə effekti əmələ gəlir. Dövlət tənzimlənməsi vasitələri, pul, kredit və ya fiskal (nəzarət) mexanizmləri iqtisadiyyata dərhal deyil, müəyyən zaman fasilələri (lağ) ilə, həm də müxtəlif davamlıqda olan vaxtda təsir edir. Bu və ya digər dövlət təsirinin ehtimal və arzu olunan nəticələrini yalnız qabaqcadan görmək deyil, həm də onun gözlədiyi zamanı müəyyən etmək lazımdır.

**Multiplikator effekti amili.** Aqrar bölmənin tənzimlənməsinin makroiqtisadi siyasətinin formalaşması zamanı multiplikator effekti adlanan amili nəzərə almaq lazımdır. O, iqtisadiyyatda yekun, son nəticənin hər hansı müəyyən bir vəsilədə ilkin impulsunu dəfələrlə ötüb keçə bilməsinin təsiri altında ötürücü mexanizmlərin mövcudluğunu bildirir.

Dövlət tənzimlənməsinin multiplikativ effekti qısa və uzunmüddətli dövrlərdə fərqlənir. İqtisadi siyasətin vasitələri yalnız əks istiqamətdə məqsəd əldə edildikdən sonra təsir etməkdə davam edir. Buna görə də zamanda bölünən müsbət effekt müəyyən tənzimləyicinin daxil olmasından sonra əmələ gəlir, mənfi nəticələrin bütün hamısından mütləq yüksək olmalıdır.

Aqrar bölmənin dövlət tənzimlənməsində səmərəliliyin əldə olunması mexanizmləri sahələrin sabit fəaliyyəti məqsədilə dövlət tənzimlənməsinə kompleks yanaşmadır. Bu zaman kənd təsərrüfatı məhsulları, xammal və ərzağın ticarətinin əlverişli rejimi, kənd təsərrüfatı istehsalı gəlirlərinin minimal səviyyəsi, güzəştli vergiqoyma sistemi, qiymət paritetlərinə yardım, dövlət yardımı, elmi-texniki tərəqqi, yüksək ixtisaslı kadr potensialı hazırlığı, struktur yenidənqurma təmin edilir, inkişaf etmiş bazar infrastrukturu yaradılır və s.

**Azərbaycan aqrar sektorunda dövlət tənzimlənməsinin çağdaş vəziyyəti**

Ərzaq dəyərində qeyri-kənd təsərrüfatı sahələrinə son istehsalatçının reallaşdırdığı məsrəflərin xüsusi çəkisi Azərbaycanda orta hesabla 20-25% , bəzi normadan artıq işləyən sahələrdə hətta 80-90% təşkil edir. Eyni zamanda ABŞ, Fransa, İngiltərə, Skandinaviya ölkələrində kənd əməyinin yüksək sənayeləşmə səviyyəsinə görə istehsalatın inteqrasiyası və təmərküzləşməsi 70-75%-ə çatır. Azərbaycanda bu qarşılıqlı münasibətləri 50:50-yə çatdırmaq üçün məhsul istehsalçısına heç olmasa onun bazar qiymətlərinin yarısı qalmalıdır.

Xüsusiyyətlərdən biri də odur ki, sahə özündə mürəkkəb biotexnoloji təbii sistemi əks etdirir. Beləliklə də, kənd təsərrüfatında təbii mənşəli mühüm istehsalat vasitələrindən istifadə olunur. Torpaq yalnız əsas istehsalat vasitəsi deyildir, həm də əmək predmetidir. Ondan istifadə olunmasının kökündən yaxşılaşması üçün genişmiqyaslı dövlət tədbirlərinin həyata keçirilməsi lazımdır.

Digər bir xüsusiyyət işçi aqreqatların yerləşdirilməsi üçün əhəmiyyətli dərəcədə enerji ehtiyatlarının sərf olunduğu mobil texnikadan istifadə edilən məkanda təsərrüfat obyektlərinin yerləşdiyi torpaq sahələrinin standartlığı və eyni cür olması ilə əlaqədardır. Kənd təsərrüfatı istehsalının

mövsümiliyi orta və uzunmüddətli kredit ehtiyatları ilə şərtlənir. Sahənin gəlirliliyi isə təbii-iqlim şəraitinin təşəkkülündən birbaşa asılıdır. Bu isə yüksək dərəcədə risklilik yaradır, kənd təsərrüfatı istehsalçılarının maliyyə qeyri-sabitliyinə gətirib çıxardır, kənd əhalisinin fəal hissəsinin əmək ehtiyatları sahəsinin təmin olunmasında problemlər yaradır.

*“Əsrin müqaviləsi”* bağlandıqdan sonra Azərbaycanda neft istehsalı və iqtisadiyyatın neft sahəsi, o cümlədən kənd təsərrüfatı istehsalı inkişaf etdi. Aqrar sahədə texnika və maşın traktor parklarının təmin olunması səviyyəsinin hissolunacaq səviyyədə yüksəlişi baş verdi. Bununla yanaşı fermer təsərrüfatının traktor və kombaynların təchizatı inkişaf etmiş ölkələrlə müqayisədə geri qalır.

Kənd təsərrüfatı istehsalının səviyyəsi ölkənin ərzaq təhlükəsizliyinin vəziyyətinə təsir edir. 2015-ci illə müqayisədə 2020-ci ildə idxal olunan malların strukturunda ərzaq mallarının payı 1% ixtisar olunaraq idxalın ümumi strukturunda 6,6 % təşkil etmişdir [5].

Əhalinin heyvan mənşəli hüceyrələrlə (süd və ət) təmin olunması islahatları zamanı əhalinin hər nəfərinə tövsiyə olunan normanın yarısı və ya üçdə birini müxtəlif qiymətləndirmələr təşkil etmişdir (cədvəl 1).

***Cədvəl 1.***

***Minimum istehlak səbəti üzrə əsas növ ərzaq məhsullarının istehlak normaları (kq /adambaşına 1 illik).***

| ƏRZAQLAR | Uşaqlar | Əmək qabiliyyətli | Yaşlılar | Orta hesabla bütün əhalinin hər nəfəri üçün |
|---|---|---|---|---|
| Çörək və çörək məhsulları (una çevirməklə) | 100,5 | 136,8 | 107,9 | 126,2 |
| Kartof | 42 | 54,8 | 40,2 | 50,7 |
| Tərəvəz və bostan məhsulları | 100,7 | 97,2 | 85,2 | 97 |
| Meyvə və giləmeyvə | 76 | 38 | 32 | 46 |
| Ət və ət məhsulları | 29,6 | 32,9 | 25,6 | 31,5 |
| Süd və süd məhsulları (südə çevirməklə) | 258,6 | 223,6 | 233,8 | 232,3 |
| Balıq və balıq məhsulları | 8 | 7,7 | 6,8 | 7,7 |
| Yumurta | 183 | 150 | 100 | 153 |
| Şəkər və qənnadı məmulatları (şəkərə çevirməklə) | 19,7 | 16,9 | 15,8 | 17,4 |
| Bitki yağları, marqarin və digər piylər | 7 | 10,9 | 8,4 | 9,8 |
| Kərə yağı | 6 | 7 | 5,8 | 6,7 |

***Mənbə:*** *cədvəl müəllif tərəfindən mənbə [6] əsasında tərtib olunub.*

Sahənin məhsullarının əmtəəlik səviyyəsi hələ aşağıdır. Əlbəttə, bu, hər şeydən əvvəl onunla əlaqədardır ki, onun böyük bir hissəsi sonrakı təkrar istehsal prosesi dövriyyəsində artıq istehsal vasitəsi kimi (toxum, yem, heyvanların nəsil verməsi, törəməsi) iştirak edir. Bundan başqa aqrar istehsal zamanı rentabelliyin süni aşağı salınması amili kənd təsərrüfatı üçün sənaye məhsullarının qiymətlərinin tam tənzimlənməməsini göstərir. Bu isə taxılın əmtəəliyinin 10,5%, günəbaxanla birlikdə yağlı bitki toxumlarının demək olar ki, 22%, heyvan və quş kəsiminin 30 % -dən artıq əmtəəliyinin aşağı düşməsinə gətirib çıxardır.

Bir çox mənfi amilər bazar infrastrukturlarının inkişaf etməməsilə bağlıdır. O isə sahənin investisiya üçün cəlbedici olmasına şərait yaradır. Bazar kanallarının olmadığı zaman aqrar bazarının kənd təsərrüfatı malları ilə dolu olması, onların satışı, məhsulların təkrar istehsalının saxta

təsəvvürlərini yaradır. Bu xüsusiyyət fövqəladə dərəcədə bir sıra mühüm ümumdövlət əhəmiyyətli problemlərdən ibarətdir. Bunlara sosial və istehsalat infrastrukturların yaradılması ilə əlaqədar olan xərclərin dövlət tərəfindən ödənilməsi, kənd təsərrüfatı əməkçilərinin motivasiyası, onların layiqli mükafatlandırılması, bunun ardınca hazırda əməkhaqqının real məbləğinə görə böhran vəziyyətində olan kənd əhalisinin rifah halının və həyat səviyyəsinin yüksəldilməsi daxildir (cədvəl 2.).

*Cədvəl 2.*

***İqtisadi fəaliyyət növləri üzrə orta aylıq nominal əməkhaqqı (manat)***

| **İqtisadi fəaliyyət növləri** | **2019** |
|---|---|
| **İqtisadiyyat üzrə - cəmi** | **635.1** |
| Mədənçıxarma sənayesi | 3055.6 |
| Maliyyə və sığorta fəaliyyəti | 1607.3 |
| Peşə, elmi və texniki fəaliyyət | 1180.3 |
| İnformasiya və rabitə | 1005.3 |
| Nəqliyyat və anbar təsərrüfatı | 855.8 |
| Dövlət idarəetməsi və müdafiə; sosial təminat | 799.9 |
| Tikinti | 737.3 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 638.9 |
| Emal sənayesi | 632.3 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 631.8 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 568.3 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 558.2 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 480.3 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 468.9 |
| Təhsil | 438.9 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 423.8 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 386.1 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 371.4 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 352.4 |

*Mənbə: cədvəl müəllif tərəfindən mənbə [6] əsasında tərtib olunub.*

Kənd təsərrüfatı və meşə təsərrüfatında işləyənlərin əməkhaqqı həcminə görə iqtisadiyyatda sonuncudan əvvəlki yerdə durur, yalnız səhiyyə sahəsini ötüb keçir. Lakin bu sahədə bir işçinin orta zamanda ödənişinin kəmiyyətinə görə onlardan yüksəkdə durur. 2020-ci ildə kənd təsərrüfatında əməkhaqqı əmək qabiliyyətli insanın minimum həyat səviyyəsinin iki dəfə misli qədər oldu. O zaman iqtisadiyyatda bu göstərici orta olaraq 3,5 dəfə idi [8].

Dəyişən iqtisadi şəraitə uyğunlaşmada əhəmiyyətli dərəcədə inersiyalılıq iştirak edir. Bu isə aqrar bölmədə əsrlər boyu praktiki olaraq məntiqi yekununa çatmamış tez-tez islahatlar aparması ilə əlaqədardır. Adətən bu sahədə dərin böhranlarin yaranması kənd əhalisinin sosial-iqtisadi vəziyyətini pisləşdirmişdir. Bu isə son nəticədə əhalidə kənd həyatına dövlətin hər cür innovasiya tətbiq etməsinə etimadsızlıq yaratmışdır.

Bununla yanaşı kəndlərdəki icra hakimiyyət orqanları işçilərinin peşəkarlıq səviyyəsinin aşağı olması, kadr çatışmazlığı yaranmış mövcud problemlərin əsas səbəb-nəticələrindən biridir. Kənd təsərrüfatı maddi istehsal sahəsi kimi xalq təsərrüfatının digər sahələrindən özünəməxsus istehsal vasitələrinə, işçilərin peşə vərdişlərinin səviyyəsinə görə fərqlənir.

**Aqrar sahədə dövlət tənzimlənməsinin xarici təcrübəsi**

Azərbaycanda kənd təsərrüfatı istehsalı sahəsində çoxsaylı, bəzən də bir-birinə zidd qanunvericilik-hüquqi tənzimləmə sisteminin mövcudluğu şəraitində onun stimullaşdırılması mexa-nizmləri

inkişaf etdirilməmişdir. Burada söhbət qiymətqoymadan, vahid-metodoloji əsaslarla maliyyə-kredit münasibətlərindən, vergilərdən və s. gedir. Belə bir zəmində sözügedən sahədə dövlət tənzimlənməsi ilə bağlı təcrübənin öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir. Kənd təsərrüfatının digər sahələrdən fərqli olaraq sprsifik xüsusiyyətləri daha çoxdur. Bu səbəbdən də xüsusi yanaşmalar tələb olunur. Azərbaycanda ərzaq məhsullarının artırılması vəzifəsinin yerinə yetirilməsi tamamilə mümkündür. Bunun üçün isə hər şeydən öncə itehsalın intensivləşdirilməsi, texnoloji proseslərin modernləşdirilməsi tələb olunur. Eyni zamanda kənd-təsərrüfatı sahəsində bir sıra məsələlərin də həlli tələb olunur. Burada aşağıdakı məsələlər dövlət tərəfindən həll edilməlidir:

- ekvivalent mübadilənin tənzimlənməsi;
- qiymət siyasəti;
- idxal-ixrac əməliyyatlarının tənzimlənməsi;
- aqrar-sənaye kompleksinin infrastrukturunun formalaşması.

Qeyd etmək lazımdır ki, inkişaf etmiş ölkələr üçün ərzaq təhlükəsizliyi deyilən problem mövcud deyildir. Lakin buna baxmayaraq inkişaf etmiş dövlətlər kənd tədərrüfatı sahəsində əmtəə istehsalçılarına əhəmiyyətli dəstəklər verirlər. Avropa və ABŞ-da gündəlik 1 milyard dollar vəsait kənd təsərrüfatı məhsullarının ixrac edilməsi üçün dotasiyalar formasında sərf edilir. Bu göstərici isə ixracın dəyərinin 40%-nə bərabərdir. Deyilən fikirlər davamlı inkişaf etməyə həsr olunmuş Ümumdünya sammitində (2002-ci il avqust-sentyabr, Yahanesburq) səslənmişdir [1, s. 299].

ABŞ-da fermer təsərrüfatlarının fəaliyyətinin kompleks halında qiymətləndirilməsi üçün hesab edirik ki, həmin təsərrüfatların dəqiq təsnifatı verilməlidir. ABŞ-da hər 6 ildən bir Konqres tərəfindən xüsusi qərar nəzərdən keçirilir. Bu qanun qəbul edilərkən milli iqtisadiyyatın aqrar sektorunun inkişaf etdirilməsi ilə əlaqədar göstəricilər nəzərdən keçirilir, prioritet istiqamətlər müəyyənləşdirilir, eyni zamanda həmin məqsədlərə nail olunması yolları və mexanizmləri təsbit edilir. Sözügedən qanunvericilik sənədində bir çox məsələlər ən əhəmiyyətli məsələlər kimi, kifayət qədər nəzərə alınmayıb. Bu sənəddə kənd təsərrüfatında azad bazar münasibətləri iştirakçıları arasında əsas münasibətlər nisbətləri nəzərə alınmamışdır. Qeyd etmək lazımdır ki, kənd təsərrüfatında, aqrar siyasətdə məqsəd və vəzifələrin təsbiti dəyişilməz olaraq qalır [3].

Burada ilk növbədə bəzi məsələlərə diqqət yetirmək lazımdır:

- daxili və xarici bazarlarda Amerika kənd təsərrüfatı məhsulları istehsalçısının maraqlarının qorunması;
- kənd yerlərində sosial sabitliyi təmin edən şəraitin yaradılması.

Məhz ABŞ-da "Böyük depressiya" illərində dövlətin fəal müdaxiləsi nəticəsində əsas məqsədlərdən biri vəziyyətin əhəmiyyətli dərəcədə sabitləşdirilməsi olmuşdur. Bununla da aqrar böhran aradan qaldırıldı.İndiki dövrdə ABŞ üçün əsas problemlərdən biri kənd təsərrüfatında istehsalın uzlaşdırılması problemidir. Uzlaşdırma təhlükəsizlik şəbəkəsi bazasında həyata keçirilir. Burada dövlət ödənişləri fermerlərin gəlirlərinə əsasən müəyyənləşdirilir. ABŞ-da kənd təsərrüfatı siyasətinin əsas müddəaları "Ərzaq və kənd təsərrüfatı" hesabatında öz əksini tapmışdır. Yaranmış vəziyyət yeni əsrin tələblərinə uyğun yeni sənəddə nəzərdən keçirilmişdir (2001-ci il sentyabr).

Dünya təcrübəsini nəzərə alaraq, Azərbaycanda dövlət tənzimlənməsində aqrar siyasətin əsas müddəaları, zənnimizcə, aşağıdakılar olmalıdır:

1. Kənd təsərrüfatı (aqrar) siyasəti və proqramlar bir-biri ilə qarşılıqlı əlaqədə olub, fermalar arasında fərqləri, istehsal xərclərini, məhsulun reallaşdırılması kanalları, idarəetmə sənəti, təsərrüfat fəaliyyəti məqsədləri arasında fərqləri nəzərə almalıdır.

2. Ərzaq təhlükəsizliyini təmin edən kənd təsərrüfatı siyasəti bazar münasibətləri bazasında fermerlər üçün sabit artım şəraiti yaratmalıdır. Lakin eyni zamanda fövqəladə vəziyyətlərdə dövlət tərəfindən aqrar sahəyə dövlət dəstəyi olmalıdır.

3. Xarici ticarət siyasətinin formalaşması iqtisadi baxımdan mənfəətli imkanlara nail olunmasına xidmət etməlidir. Burada həmçinin tariflərin azaldılması mexanizmi və subsidiyaların ləğvindən istifadə edilməlidir. Çünkü, bunlar ixracın dəyərini təhrif edirlər. Bu tədbirlər ölkə daxilində

həyata keçirilən kənd təsərrüfatı siyasəti ilə uzlaşdırılmalıdır. Beynəlxalq öhdəliklər yerinə yetirilməli, ərzaq bolluğu yaradılmalı, beynəlxalq səviyyədə ticarət danışıqlarında ölkənin mövqeyi gücləndirilməlidir.

4. Daxili kənd təsərrüfatı siyasəti yüksək rəqabətə davamlılığı təmin etməli, Amerika kənd təsərrüfatı məhsullarının yüksək rəqabətədavamlılığını təmin etməlidir, eyni zamanda Amerika fermerləri üçün yeni ixrac imkanları axtarıb tapmalıdır. Bütün bunlara xarici ticarət siyasəti də istiqamətlənməlidir.

5. Kənd təsərrüfatı məhsullarının istehsalının səmərəliliyi (sərhədyanı təftişdən başlayaraq ciddi elmi araşdırmalara qədər) bazar infrastrukturundan asılıdır. Müasir reallıqlara istiqamətlənməlidir, ərzaq kompleksinin bütün tərkib hissələri, elementləri nəzərə alınmalıdır. Alətlər seçimi düzgün həyata keçirilməlidir. Burada kənd təsərrüfatı məhsullarının istehsalında yüksək göstəricilərə nail olunması, ətraf mühitin qorunması tələbləri və s. də nəzərə alınmalıdır.

7. Amerika aqrar siyasətinin üstün istiqaməti amerikalılar üçün sağlam və doydurucu ərzaq məhsullarının əlçatan olmasına nail olunmasıdır. Burada əsas vurğu az gəlirli ailələrə ərzaq yardımının göstərilməsi üzərinə düşür.

8. Ərzaq məhsullarının keyfiyyəti problemi dərk olunaraq milli prioritetlərdə də dəyişikliklər edilməlidir. Burada qida məhsulları ilə əlaqədar çoxçeşidliliyə nail olunması, millətin sağlamlığının və rifah halının yaxşılaşdırılmasına xüsusi diqqət yetirmək lazımdır.

9. Müvafiq olaraq kənd yerlərinin razılaşdırılmış və bir-biri ilə əlaqəli inkişaf etdirilməsinə nail olmaq lazımdır. Bunun üçün yerli şərait nəzərə alınmalı, özəl investisiya qoyuluşları üçün cəlbedici vəziyyətə gətirilməlidir

10. Kənd təsərrüfatı sahəsində həyata keçirilən siyasət sistemli yanaşmaya əsaslanmalıdır. Burada sistemli yanaşma ərzaq və kənd təsərrüfatı proqramlarının səmərəli və uzlaşdırılmış şəkildə reallaşdırılmasını, vətəndaşların sosial infrastruktura çıxışını tələb edir.

Qeyd etmək lazimdır ki, qısa müddət ərzində respublikamızda aparılan maliyyə-kredit sisteminin islahatı nəticəsində bank sistemi təkmilləşdirilmiş, maliyyə sektorunun kəmiyyət mərhələsindən keyfiyyət artımı mərhələsinə keçməyə başlamışdır.Yeni iqtisadi şəraitə uyqun aparılan iqtisadi islahatların mühüm sahələrdən biri maliyyə-kredit sisteminin islahatı xüsusi əhəmiyyət daşıdığından bu sahədə müəyyən irəliləyişlərə nail olunsa da müasir dünya standartları səviyyəsinə çatmaq üçün hələ çox işlərin görülməsi tələb olunur. Belə ki, sosial-iqtisadi sahələrin istənilən vasitələrlə inkişafı bank sisteminin iştirakı olmadan mümkün deyil. Buna görə də bank sistemi öz funksiyalarını qloballaşma prosesinin tələblərinə və spesifik xüsuyyətlərinə uyğun şəkildə yerinə yetirilməlidir. Məhz belə bir şəraitdə müstəqil dövlətin maliyyə təhlükəsizliyini təmin etmək olar.

Dünya praktikasında aqrar sferanın inkişafını və kənd təsərrüfatı istehsalının stimullaşdırılmasını ən geniş yayılmış maliyyə dəstəyi, büdcə təsisatları, o cümlədən, subsidiyalar vasitəsi ilə reallaşdırılır.Aqrar sferanın təmzimlənməsinin maliyyə mexanizmi mülkiyyət mənsubiyyətindən asılı olmayaraq bilavasitə aqrar əmtəə istehsalçılarının zərərlərinin konpensasiya edilməsi, bütövlükdə kənd təsərrüfatında maliyyə təsərrüfat fəaliyyətinin gəlirlə başa çatdırılması ilə xarakterizə edir. İqtisadi sistemin tipindən, xarakterindən asılı olmayaraq bütün ölkələrdə istehsal və ixrac fəaliyyəti subsidiyalaşdırılır ki, bu da milli iqtisadi təhlükəsizliyin təmin edilməsi,iqtisadi inkişafa nail olunması baxımından mühüm əhəmiyyət kəsb edir.

Birbaşa subsidiyalaşdırmanın səmərəliliyi mülkiyyət mənsubiyyətindən asılı olmayaraq təsərrüfat subyektlərinin xərclərinin bu və ya digər hissəsinin kompensasiya edilməsi və növbəti ildə geniş təkrar istehsalın davam etdirilməsinə əlverişli şərait yaradılması ilə xarakterizə edilməlidir. Subsidiyalaşdırmanın mənfi effekti ondan ibarətdir ki, bu tendensiyanın davamlı xarakter daşıması təsərrüfat subyektində ələbaxımlılıq pisxologiyasının yaradılması, təşəbbüskarlıq qabiliyyətinin və kapital qoyuluşlarına olan tələbin zəifləməsi ilə nəticələnə bilər. Praktikada subsidiyalaşma iqtisadiyyatın dövlət tənzimlənməsinin ən səmərəli xarakter daşıyan qeyri-müstəqil metodlarından hesab edilir. Fərq qoyulmadan bütün müəssisələrə tətbiq edilməsi nəticə etibarı ilə dövlət büdcəsində xərclərin artımına və kəsrin yaranmasına səbəb ola bilər. Məlum olduğu kimi aqrar bölmədə

bazar münasibətlərinin inkişafının iqtisadi səmərəliliyi stabil maliyyə sisteminin formalaşdırılmasından bilavasitə asılıdır. Bu problemin səmərəli həlli isə aqrar sahənin maliyyə kredit tənzimlənməsinin və aqrar sahədə çevik pul kredit siyasətinin həyata keçirilməsini tələb edir. Ölkəmizin beynəlxalq münasibətlər sisteminə inteqrasiyası, dünya təsərrüfat əlaqələrinin genişlənməsi, bütövlükdə xarici iqtisadi fəaliyyətin davamlı olaraq liberallaşdırılması şəraitində iqtisadiyyatın az gəlirli və təbii şəraitdən asılılığı yüksək olan aqrar sektoruna pul kredit və büdcə siyasəti vasitəsi ilə yardım göstərilməsi bilavasitə ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsinə xidmət edir.

Respublika iqtisadiyyatının hazırkı vəziyyətində ölkənin maliyyə sisteminin əsaslı və stabil inkişafını təmin etmək üçün ilk növbədə məhsul istehsalını artırmaqla daxili bazarın səmərəli fəaliyyətinə nail olmaq gərəkdir. Bu baxımdan maliyyə vəsaitinin çatışmadığı şəraitdə əmtəə istehsalçılarına kredit resurslarının güzəştli şərtlərlə verilməsi mühüm əhəmiyyət daşıyır. Kredit əməliyyatı ilə bu və ya digər dərəcədə dövlət və qeyri-dövlət institutları da məşğul olurlar. Burada da maliyyə orqanları, xüsusi funksiyaları olan fondlar və banklar və s. daha çox diqqəti cəlb edir. Bu qurumlar kredit əməliyyatlarında iştirak etməsələr də ölkədə pul vəsaitinə olan tələbi və xüsusi borc kapitalının hərəkətini tənzimləyə bilmir, ona yalnız müəyyən dərəcədə təsir göstərirlər. Məlumdur ki, kredit resurslarının hərəkət və istifadə mexanizmini respublikada Milli Bank formalaşdırır və bu sahəni dövlətin iqtisadi sisteminə uyğunlaşdırır. Yəni, Milli Bank bazar iqtisadiyyatı şəraitində beynəlxalq təcrübədən geniş istifadə edərək açıq kredit əməliyyatlarını təşkil etməklə, mərkəzləşdirilmiş kredit resuslarına görə faiz dərəcələrini və məcburi ehtiyat normalarını müəyyənləşdirir və bu zaman kredit tənzimlənməsi ön plana çəkilir.

### *Nəticə*

Beləliklə, ölkəmizin aqrar bölməsi və onun dövlət tənzimlənməsinin əsas inkişaf meyillərinin xüsusiyyətlərinin ümumiləşdirilməsi nəticəsində ciddi çatışmazlıqları qeyd etmək olar. Onlardan (istehsalat zamanı meydana çıxan problemlərdən) bəzilərini yaxın perspektivdə aradan qaldırmaq olar. Bunlar kənd əhalisinin depopulyasiyasını, kənd yoxsulluğunu, dövlətin keçirdiyi tədbirlərə həssaslığın aşağı düşməsini, laqeydliyi, torpaq islahatlarının başa çatmamasını, o cümlədən torpaq sahələrinin vətəndaş tədavülünün inkişaf etməməsini, kənd təsərrüfatı torpaqlarının böyük kütləsinin kənd təsərrüfatı dövriyyəsindən əsassız çıxarılmasını, kənd təsərrüfatının investisiya, maddi-texniki və əmək ehtiyatları ilə təmin olunmasına dövlətin yardım etməsinin aşağı səviyyəsini göstərmək olar. Şübhəsiz ki, bütün bunlar isə ərzaq müstəqilliyinin real bərpa olunmasına mane olur, ölkənin bir çox aqrolandşaftlarında ekoloji tarazlığı pozur, milli iqtisadiyyatın dünya təsərrüfat əlaqələri sisteminə inteqrasiyasının qarşısını alır.

## ƏDƏBİYYAT


1. Брянских, С.П. Экономика сельского хозяйства / С.П. Брянских. – М.: Агропромиздат, 2017. – 326 с., с. 299
2. Кенэ Ф. Избранные экономические произведения. М., 1960. С. 98-104
3. Климова Н.В. Особенности регулирующего воздействия государства на агробизнес в зарубежных странах // Научный журнал КубГАУ. — 2013. — С. 713–729.
4. Tinbergen J., Mennes L.B.M., Waardenburg J.G. The Element of Space in Development Planning, Amsterdam,1969
5. https://www.stat.gov.az/source/trade/az/f_trade/xt008_2.xls
6. https://www.stat.gov.az/source/ food_balances/az/005_1.xls
7. https://www.stat.gov.az/source/labour/az/004_2-3.xl
8. https://www.stat.gov.az/source/labour

***Самая Огтай гызы Бабаева***
***Азербайджанский Государственный***
***Аграрный Университет, диссертант***

**Основные факторы государственного регулирования аграрного сектора**

***Резюме***

**Цель исследования** - изучение основных факторов государственного регулирования аграрного сектора Азербайджана.

**Методология исследования** - системный подход, сравнительный анализ.

**Практическая ценность исследования** - возможность использования его в качестве научного источника в исследованиях по государственному регулированию аграрной экономики.

**Результаты исследования** - даны предложения по эффективному государственному регулированию аграрного сектора.

**Оригинальность и научная новизна исследования** - выявление и научное обоснование современных инструментов государственного регулирования аграрного сектора в Азербайджанской Республике.

***Ключевые слова: аграрный сектор, государственное регулирование, факторы, продовольственная безопасность, зарубежный опыт.***

***Samaya Oktay Babayeva***
***Azerbaijan State Agrarian University, Dissertant***

**The main factors of state regulation of the agricultural sector**

***Summary***

**Research objective** is to study the main factors of state regulation of the agricultural sector in Azerbaijan.

**Research methodology** - systematic approach, comparative analysis.

**Practical value of research -** the possibility of using it as a scientific source in research on state regulation of the agrarian economy.

**Findings** - suggestions for effective state regulation of the agricultural sector.

**Originality and scientific novelty of the research** - identification and scientific substantiation of modern tools of state regulation of the agrarian sector in the Republic of Azerbaijan.

***Key words: agricultural sector, government regulation, factors, food security, foreign experience.***